

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Qəzet 1921-ci ildən çıxır

Sayı: 215 (21.876)

14 noyabr 2017-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvanda “Arıçılıq məhsulları-bal festivalı” keçirilib






Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2016-cı il noyabrın 18-də “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Sərəncam imzalamışdır.

Dövlət Proqramına uyğun olaraq noyabrın 11-də “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində “Arıçılıq məhsulları-bal festivalı” keçirilmişdir.

Tədbirin aparıcıları xalqımızın əsrlər boyu arıçılıqla bağlı yaratdığı folklor nümunələrini, atalar sözlərini festival iştirakçılarının diqqətinə çatdırmışlar. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin dekanı, biologiya üzrə fəlsəfə doktoru, dosent Elsevər Əsədov çıxış edərək muxtar respublikanın təsərrüfat və məişət həyatında əsas yerlərdən birini tutan arıçılığın inkişaf tarixindən danışmış, zəngin təbiətin arıçılığın inkişafı üçün əlverişli şərait yaratdığını bildirmiş, Naxçıvan balının bioloji xüsusiyyətləri barədə məlumat vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov festivalda iştirak etmiş, Naxçıvan balının sərgi-satışı ilə tanış olmuşdur.

Festivala muxtar respublikanın bütün rayonlarından olan 210 arıçı tərəfindən bal, vərəmum, çiçək tozu, güləm, arı südü və digər arıçılıq məhsulları çıxarılmışdı. Həmçinin festivalda baldan hazırlanan müxtəlif şirniyyatların, araqların, doşab və şərbətlərin də satışı həyata keçirilirdi. Naxçıvan balı öz dadı, görünüşü və digər üstün keyfiyyətlərinə görə Azərbaycanda, eyni zamanda qonşu ölkələrdə də yaxşı tanınır və yüksək qiymətləndirilir. Tərkibi mineral maddələrlə zəngin olan Naxçıvan balı və arıçılıq məhsulları həm də müalicəvi əhəmiyyətə malikdir.

Ali Məclisin Sədri bal və digər arıçılıq məhsulları almış, arıçılarla söhbət etmiş, onların qayğıları ilə maraqlanmışdır.

Qeyd olunmuşdur ki, arıçılığın inkişafı sahəsində həyata keçirilən tədbirlər, balın satışı üçün yaradılan şərait, arıçılıq əczaxanalarının fəaliyyət göstərməsi və dərman təminatı keyfiyyətli məhsul istehsalına və arı ailələrinin sayının artmasına səbəb olmuşdur. Əgər muxtar respublikada 2000-ci ildə 12 min 620 arı ailəsi olmuşdursa, hazırda arı ailələrinin sayı 70 mindən çoxdur. Son illər arıçılar balla yanaşı, qiymətli arı məhsulları olan vərəmum, çiçək tozu, güləm, arı südü və digər arıçılıq məhsulları da istehsal edirlər. Arı ailələrindən toplanılan və xüsusi tibbi əhəmiyyətə malik olan bu cür qiymətli arı məhsullarına tələbat ilbəil artır. Eyni zamanda balın qablaşdırılması və emalı müəssisələrinin fəaliyyət göstərməsi istehsal olunan məhsulun daha rahat satışına imkan verir.

Ali Məclisin Sədri muxtar respublikanın rayonlarında arıçılarla görüşlərin keçirilməsi, elmi nailiyyətlərin və qabaqcıl təcrübənin tətbiqi sahəsində maarifləndirmə işlərinin aparılması, lizinq yolu ilə balsüzən aparatların gətirilməsi və arıçılara verilməsi, arıçılıq məhsullarının emalı və qablaşdırılması müəssisələrinin yaradılmasının davam etdirilməsi, eləcə də arıxanaların yerləşdiyi ərazilərdə balyığma mənbəyi hesab olunan bitkilərin əkininə üstünlük verilməsi barədə tapşırıqlar vermişdir.

Festival noyabrın 12-dək davam etmiş, arıçılar arasında “Ən yaxşı arıçılıq məhsulları-bal” nominasiyası üzrə müsabiqə keçirilmiş, qaliblər mükafatlandırılmışdır.

Festivalda Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının çıxışı olmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Sahibkarlarımız beynəlxalq sərgilərdə iştirak ediblər

***Son illər muxtar respublikamızda emal və istehsal müəssisələrinin sayının artması sahibkarlığın inkişafına ciddi önəm verilməsinin göstəricisidir. Həmin müəssisələrdə istehsal olunan məhsullar daxili bazarın qorunmasında mühüm əhəmiyyət daşıyır. Yaradılmış şərait hesabına dünyaya inteqrasiya olunduğumuz bir dövrdə artıq sahibkarlar daxili bazarla kifayətlənməyərək həm də rəqabətədavamlı, ixracyönümlü məhsul istehsalına da ciddi fikir verirlər.***

Bir neçə ildir ki, müxtəlif sahibkarlıq subyektləri öz məhsullarını xarici bazarlara çıxarmaq imkanları da qazanıblar. Keyfiyyətli və ixracyönümlü məhsul istehsalı işin bir tərəfidirsə, onun xarici bazara çıxarılması üçün şərait yaradılması digər tərəfidir. Bu cəhətdən xarici ölkələrdə təşkil olunan beynəlxalq tədbirlər mühüm əhəmiyyət daşıyır. Ölkə daxilində və xaricində həyata keçirilən sərgilərdə və bir sıra tədbirlərdə sahibkarların iştirakı təmin olunmaqla, onlara öz məhsul və xidmətlərini nümayiş etdirmək imkanları yaradılır ki, bu da, öz növbəsində, həmin sahibkarların istehsal etdiyi məhsulların satışının dəstəklənməsinə xidmət edir.

Yerli məhsulların nümayiş etdirildiyi sərgilər ticarət əlaqələrinin genişləndirilməsi, iş adamları arasında ünsiyyətin qurulması və əməkdaşlığın inkişafı baxımından əhəmiyyətli, yeni tərəfdaşların tapılması, istehsalın şaxələndirilməsi və müəssisələrin imicinin formalaşdırılması baxımından faydalıdır.

Yerli sahibkarların potensial imkanlarının reallaşdırılmasına dəstək və biznesin müasir formalarının təşviq edilməsi, xarici əlaqələrin genişləndirilməsi məqsədilə 2017-ci ilin ötən dövrü ərzində muxtar respublika sahibkarlarının iştirakı ilə yerli və xarici ölkələrdə 24 biznes-forum və sərgidə 92 sahibkarlıq subyektinin, ümumilikdə isə son illərdə muxtar respublikadan 1500 nəfərdən çox nümayəndənin 285 tədbirdə iştirakı təmin edilib. Bu beynəlxalq tədbirlər çərçivəsində muxtar respublikamız haqqında müxtəlif çap materialları, jurnallar, broşürlər və disklər xarici tərəfdaşlara paylanılıb.

Bu günlərdə İran İslam Respublikasının Tehran şəhərində sənaye və kənd təsərrüfatı məhsullarının nümayişi, xarici bazarlara məhsulların ixracı sahəsində təcrübə mübadiləsi, müəssisələr arasında kooperasiya əlaqələrinin genişləndirilməsi, ticarət sahəsində yeni tərəfdaşların tapılması baxımından əhəmiyyətli olan “İran EXPO-2017” sərgisi keçirilib.

Tədbirdə hər iki ölkənin iş adamları, o cümlədən muxtar respublikada fəaliyyət göstərən şirkətlərdən “Şirvanşahlar” Xarici İqtisadi Əlaqələr Assosiasiyasının, “Naxçıvan Məhsulları”, “Prestij-Naxçıvan Pivəsi” və “Gəmiqaya Bərəkət Qida Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətlərinin nümayəndələri iştirak ediblər.

Keçirilmiş görüşlərdə muxtar respublikamızı təmsil edən “Şirvanşahlar” Xarici İqtisadi Əlaqələr Assosiasiyası ilə İranın “Pairan” şirkətinin nümayəndələri arasında ayaqqabı altlıqlarının birgə istehsalının təşkili istiqamətində ilkin razılıq əldə olunub.

“İxracat həftəsi-2017” adlı daha bir sərgi Türkiyə Respublikasının İstanbul şəhərində keçirilib. İnvestisiya, istehsal və ixracın iqtisadiyyatdakı əhəmiyyətinə diqqətin artırılması məqsədilə təşkil olunan sərgidə Türkiyənin yerli firmaları ilə yanaşı, muxtar respublika şirkətlərindən “Müasir Məkan” ət və ət məhsulları istehsalı müəssisəsinin, “Savalan-S” Məhdud Məsuliyyətli Cəmiyyətinin, “Cahan Holdinq” Kommersiya Şirkətləri İttifaqının və “Danyeri” İstehsalat və xidmət müəssisəsinin nümayəndələri tədbirdə iştirak ediblər.

Nümayəndə heyəti sərgi çərçivəsində təşkil olunmuş ikili görüşlərdə ixrac imkanlarının qiymətləndirilməsi, bu sahədə müştərək layihələrin icrası istiqamətində müzakirələr aparıblar.

O da xüsusi vurğulanmalıdır ki, Naxçıvan şirkətlərinin təmsil olunduğu belə sərgilərin sayında artım müşahidə edilir. Qeyd edək ki, cari ilin sonunadək muxtar respublika şirkətlərinin Çin Xalq Respublikasında keçiriləcək sərgidə, eləcə də Rusiya, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanında təşkil olunacaq ixrac missiyalarında iştirakları nəzərdə tutulur.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

***Naxçıvan Muxtar Respublikasında infrastrukturun yenilənməsi, müasir müəssisələrin, yeni iş yerlərinin yaradılması istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi uzunmüddətli və hərtərəfli inkişaf konsepsiyasının reallaşdırılmasına əsaslı töhfələr verib.***

## Ümumi daxili məhsul istehsalının həcmi artıb

Ötən dövrdə sahibkarlığın inkişaf etdirilməsinə göstərilən dövlət qayğısı nəticəsində istehsal müəssisələrinin sayı artıb, yerli məhsulların növ və çeşidinin həcmi yüksələn xətt üzrə inkişaf edib. Bu da, öz növbəsində, ümumi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsul istehsalının həcmini artırıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, 2017-ci ilin yanvar-sentyabr aylarında muxtar respublikada ümumi daxili məhsulun dəyəri 1 milyard 949 milyon manatdan artıq olub ki, bu da bir il öncəki müvafiq göstəricidən 1,6 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsulun dəyəri əvvəlki ilin müvafiq dövrünə nisbətən 5,5 faiz artaraq 4327,4 manat olub.

Əvvəlki illərdə olduğu kimi, cari ilin ilk 9 ayında da ümumi daxili məhsulun tərkibində ilk yeri 28,2 faizlik payla sənaye məhsulları tutub və maddi istehsalın payı 56,5 faiz təşkil edib. 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 2017-ci ilin yanvar-sentyabr aylarında sənaye məhsulu 1,3, kənd təsərrüfatı məhsulu 3,8, nəqliyyat sektorunda yük daşınması 2,1, informasiya və rabitə xidmətlərinin dəyəri 1,9 faiz, o cümlədən mobil rabitə xidmətinin dəyəri 1,9, pərakəndə əmtəə dövriyyəsi 1,4, əhaliyə göstərilən ödənişli xidmətlər 1,8, ixrac 1,3, əhalinin gəlirləri 1,2 faiz artıb.

**Səbuhi HƏSƏNOV**

## Yeni yaşayış binası inşa olunur

Muxtar respublikada yaşayış və inzibati binaların tikintisi və ya əsaslı şəkildə yenidən qurulması diqqət mərkəzində saxlanılır. Bu tədbirlər iri yaşayış məntəqələrindən olan Babək rayonunda da uğurla aparılır.

Cari ildə rayonda İcra Hakimiyyətinin inzibati binası, Nehrəmdə Heydər Parkı, Payızda 4 sosial obyekt və kənd yolu, Şıxmahmud və Xəlilli kəndlərini Naxçıvan şəhərinə birləşdirən yol, eləcə də sukanalizasiya sistemləri istifadəyə verilib. Abadlıq-quruculuq tədbirlərinin davamı olaraq oktyabr ayından Babək qəsəbəsində yeni yaşayış binasının tikintisinə başlanılıb.

Yeddi mərtəbədən ibarət olacaq yaşayış binasının zirzəmi hissəsində geyim və ərzaq mağazaları, dərzi və bərbər salonu olacaq. Hazırda binanın təməli qazılır. Bina 28 mənzillidir. Mənzillərin 21-i ikiotaqlı, 7-si isə üçotaqlı olacaq. Bu da rayonda gənc ailələrin mənzilə olan tələbatının ödənilməsinə şərait yaradacaq. Yaşayış binası öz müasir görkəmi ilə Babək qəsəbəsinin də hüsnünə yeni çalarlar qatacaq.

**Muxtar RZAZADƏ**

*Yeniləşən kəndlərimiz*

# Müasirliyə qovuşmuş yurd yerlərinin sayı artır

## Ələkli kəndi növbəti belə ünvandır

***Bir neçə il əvvəl Sədərək rayonunda yeni bir obyektin açılış mərasimində yaşlı nəslin nümayəndələrinin birinin söylədiyi fikri tez-tez xatırlayıram: Ulu öndərimiz Heydər Əliyev Naxçıvanı düşmən işğalından qorudu, Ali Məclisin Sədri isə Naxçıvanı yenidən qurdu. Bu fikirdə olan həqiqəti bu gün hər birimiz təsdiq edərik. Naxçıvanla əlaqəsi olan, buraya ara-sıra qonaq gələn insanlar da həmin qənaətin doğruluğunu görürlər.***

El ağsaqqalının dediklərini təsadüfən xatırlamadım. Ötən günlərin birində Şərur rayonunun Ələkli kəndində gördüklərim ağsaqqalın sözlərinə canlı misal olan reallıqdan bir nümunə, adıçəkilən yaşayış məntəqəsində kənd tam orta və uşaq musiqi məktəblərinin, kənd və xidmət mərkəzlərinin, mərasim evinin yeni binaları, yaşayış məntəqəsində yolların yenidən qurulması, digər tədbirlər isə quruculuğun növbəti səhifələridir.





Budur, kənddə aparılan kompleks quruculuq tədbirləri ərəfəsində salınmış böyük alma bağının əhatəyə aldığı yeni ünvanlardan ikisi: Ələkli kənd tam orta məktəbinin binası və kənd mərkəzi. Ələkli kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Elşən Bayramovla məktəb binasına daxil oluruq. Tənəffüs vaxtıdır. Şagirdlərin şaqraq gülüş səsləri bizi qarşılayır. Müəllimlər otağına daxil oluruq.

Bütün fəaliyyətini Ələkli məktəblilərinin təhsilinə sərf etmiş 91 yaşlı təqaüdçü-müəllim Aqiyə Qurbanova ilə burada tanış oluram. Nurani sifətindən təbəssüm süzülür. Hiss etmək çətin deyil ki, yeni məktəb binası ona da böyük sevinc bəxş edib. Deyir ki, tədris ocağının yeni binasının istifadəyə verilməsi münasibətilə doğma kollektivi təbrik etməyə gəlib. Uzun illər pedaqoji fəaliyyət göstərən Aqiyə müəllimənin ürəyi sözlə doludur:

– Naxçıvanda quruculuq işlərindən söhbət gedəndə, ilk növbədə, məktəb tikintisi yada düşür. Son 20 ildən artıq bir müddətdə 200-dən artıq yeni məktəb binasının tikilməsi və ya yenidən qurulması kiçik iş deyil. Yaşımın bu çağında sevinirəm ki, Ələklidə belə gözəl məktəb binası istifadəyə verilib. Kəndin ziyalıları adından minnətdarlığımı bildirir, müəllim və şagirdləri təbrik edirəm. İnanıram ki, onlar yaradılmış bu şəraitə əməli işləri ilə cavab verəcəklər.

Məktəbin gənc müəllimi Gövhər İsmayılova: – Kənddə müasir məktəb binasının istifadəyə verilməsi təhsilin inkişafına göstərilən qayğının davamıdır və öz işimizə məsuliyyətimizi daha da artırıb. Elektron lövhəli siniflər, kompüter otağı, zəngin kitabxana, gənclərin sağlam böyüməsi üçün idman qurğuları istifadəmizə verilib. Ona görə də yaradılan şəraitdən səmərəli istifadə edəcək, təhsilli gənclər yetişdirilməsi üçün qüvvə və bacarığımızı əsirgəməyəcəyik.

Məlumat üçün bildirək ki, 3 mərtəbəli məktəb binası 234 şagird yerlikdir. Binada 3-ü elektron lövhəli olmaqla, 12 sinif otağı, fizika və kimya-biologiya laboratoriyaları, hərbi kabinə, müəllimlər otağı, şahmat sinfi, kompüter, psixoloq otaqları, kitabxana və idman zalı vardır.

Məktəbin kitabxanasında 3190 kitab müəllim və şagirdlərin istifadəsinə verilib, oxunması zəruri olan kitablardan ibarət guşə yaradılıb. Tədris prosesində yeni texnologiyaların tətbiqinə geniş yer verilməsi diqqətdə saxlanılaraq məktəbdə 19 kompüter dəsti quraşdırılıb və internetə qoşulub. Məktəb binasının istifadəyə verildiyi gün elektron lövhəli sinifdə muxtar respublikanın 201 ümumtəhsil məktəbi ilə Hüseyn Cavidin ev-muzeyi arasında keçilən distant dərs izlənilib.

Gövhər müəllimə Ələkli kəndinə, onun sakinlərinə göstərilən belə qayğıya görə minnətdarlığını bildirdi.

Kənddə yeni istifadəyə verilmiş musiqi məktəbinə də baş çəkirik. Məktəbin direktoru İbrahim Kazımov deyir ki, onların istifadəsinə 23 sinif, direktor, müəllimlər otaqları, konsert zalı, musiqi alətlərinin təmiri otağı, musiqi nəzəriyyəsi və ədəbiyyatına aid tədris vəsaitləri ilə zəngin kitabxana, 5 pianino verilib. Məktəbdə 108 şagirdin musiqi təhsili ilə 31 müəllim məşğul olur. Müəllimlərin böyük əksəriyyəti ilk musiqi təhsilini bu məktəbdə alıblar. Ətraf yaşayış məntəqələrindən də məktəbə şagirdlər qəbul edilib. Məktəbdə xalq çalğı alətləri, fortepiano və nəzəri fənlər şöbələri fəaliyyət göstərir, tar, kamança, fortepiano, qarmon, nağara və saz ixtisasları üzrə musiqiçi kadrlar hazırlanır. Burada xalq çalğı alətləri, sazçalanlar və nağaraçalanlar ansamblları, xor kollektivi və uşaqlardan ibarət həvəskar yallı qrupu da yaradılıb.

Məktəbdə 3 şöbədə 6 ixtisas üzrə musiqi dərsləri keçilir. Bu da musiqi təhsili alan uşaqların istedadının üzə çıxarılması və milli musiqimizin yaşadılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Afaq Kamalova musiqi məktəbinin saz ixtisası üzrə müəllimidir. Onun dediklərindən: – Muxtar respublikada bütün sahələrdə olduğu kimi, mədəniyyətin inkişafına da göstərilən diqqət və qayğı göz qabağındadır. Bütün yaşayış məntəqələrində müasir mədəniyyət müəssisələrinin, o cümlədən musiqi məktəblərinin tikilib istifadəyə verilməsi bunun ən parlaq nümunəsidir. Ələkli Kənd Uşaq Musiqi Məktəbi üçün müasir binanın inşa olunması kollektivimizin böyük sevincinə səbəb olub. Çalışacağıq ki, bizə göstərilən qayğıya əməli işimizlə cavab verək.

Müasirliyə qovuşmuş yaşayış məntəqəsində istifadəyə verilən obyektlərdən biri də kənd mərkəzidir. Mərkəzin birinci mərtəbəsində kitabxana, rabitə evi, feldşer-mama, polis sahə və baytarlıq məntəqələri yerləşir. Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, statistika otağı, mədəniyyət evi üçün otaqlar və 42 yerlik zal isə binanın ikinci mərtəbəsindədir. Əhalinin maarifləndirilməsində və asudə vaxtın səmərəli təşkilində böyük rolu olan kənd kitabxanasında oxucular üçün lazımi şərait yaradılıb. Burada 7472 kitab vardır. Kənd mərkəzindəki rabitə evində poçt şöbəsinin fəaliyyəti təmin olunub, 512 yerlik yeni nəsil Avtomat Telefon Stansiyası quraşdırılıb.

Ələkli kənd sakinlərinə göstərilən səhiyyə xidməti də razılıqla qarşılanır. Burada yaradılmış feldşer-mama məntəqəsi lazımi tibbi avadanlıqlar və dərman vasitələri ilə təmin olunub. Tibb işçiləri kənddə peyvənd işinin vaxtlıvaxtında aparılmasına və gigiyenik qaydalara əməl olunmasına ciddi diqqət yetirirlər. Digər bir qayğı isə burada inşa olunmuş xidmət mərkəzidir. Xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, dərzi, ət satışı yeri, ərzaq və təsərrüfat malları mağazaları fəaliyyət göstərir. Mərkəzin istifadəyə verilməsi həm də kənddə yeni iş yerlərinin açılmasına səbəb olub. Hazırda burada 6 nəfər daimi işlə təmin edilib.

Ələkli kənd sakinlərinin həyatında əlamətdar gün olan noyabr ayının 6-da burada həm də yeni mərasim evi istifadəyə verilib. Binaya su, elektrik və qaz xətləri çəkilib, mətbəx zəruri inventarla təchiz edilib.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Elşən Bayramovun sözlərinə görə, kompleks quruculuq tədbirləri çərçivəsində 5300 metrlik avtomobil yolunun hərəkət hissəsi genişləndirilərək asfalt örtük salınıb. Yolda tikinti işləri mühəndis-texniki tələblərə uyğun aparılıb, 125 su keçidi, 2 suötürücü qoyulub, 2230 metr uzunluğunda beton kanal çəkilib, bir sıra abadlıq işləri görülüb. Kənddə rabitə, elektrik, qaz və su xətləri yenilənib, 2310 metr fiber-optik kabel, 13 min 580 metr rabitə, 670 metr elektrik və 380 metr qaz xətti çəkilib, əhalinin içməli suya olan tələbatının yaxşılaşdırılması məqsədilə 1 kilometrlik içməli su xətti bərpa olunub.

Öyrəndik ki, Ələklidə 439 təsərrüfatda 1523 sakin yaşayır. Kəndin ümumi sahəsi 338 hektardır. Burada əhali taxılçılıq, kartofçuluq, heyvandarlıq və digər təsərrüfat sahələri ilə məşğul olur. Muxtar respublikada ən dadlı kartof bu kənddə yetişdirilir. Başa çatmaqda olan təsərrüfat ilində kənd adamları 65 hektar sahədən 500 tona yaxın kartof tədarük ediblər. Digər əkinçilik sahələri üzrə də göstəricilər ürəkaçan olub. Hazırda kənd adamları gələn ilin məhsulu üçün taxıl əkini ilə məşğuldurlar. Təbii ki, kənddə aparılan kompleks quruculuq tədbirləri, kənd təsərrüfatını inkişaf etdirmək üçün yaradılan şərait sakinlərin də ürəyincədir. Onlarla söhbət zamanı buna bir daha əmin olduq.

Kənd sakini Hacı Abbasov deyir ki, aparılan quruculuq işləri və yaradılan müasir infrastruktur Ələkli kəndinə qəşəbə görkəmi verib. Kəndin bütün sosial problemləri həll olunub. Bu da kənd adamlarının təsərrüfatda çalışmalarına, məhsul bolluğu yaratmalarına stimul olub. Ələkli sakinləri, əsasən, əkinçiliklə məşğul olurlar. Onların istehsal etdikləri məhsullar bazar və yarmarkalarda özünəməxsus yer tutur. Bu da imkan verir ki, təsərrüfatları daha da genişləndirsinlər.

Müasir yaşayış məntəqəsinə çevrilən Ələklidə yeni obyektlərin açılışında iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri deyib: ***"Kəndlərdə abadlıq-quruculuq işlərinin aparılması, yeni sosial obyektlərin istifadəyə verilməsi insanlarda ölkəmizin sabahına inam yaradır. Bu gün Ələkli kəndində geniş quruculuq işlərinin aparılması, yeni sosial obyektlərin istifadəyə verilməsi müstəqil Azərbaycan dövləti tərəfindən həyata keçirilib. Ələkli kəndi müasir Azərbaycan kəndinin nümunəsidir. Kənddə yaradılan şərait sakinlərin rahat yaşayışına xidmət edir. Ona görə də sakinlər uzun illər ərzində formalaşmış təsərrüfat ənənələrini davam etdirməli, torpaqları əkməli, Ələkli kəndinin bugünkü müasir görkəmini qoruyub saxlamalıdırlar".***

✍ Muxtar MƏMMƏDOV

***Tarixən cəmiyyət inkişaf etdikcə həyatda rast gəlinən müxtəlif təsadüfi bədbəxt hadisələrin vurduğu maddi zərərlərin sığorta vasitəsilə ödənilməsi də mühüm bir tələbat halına gəlib. Bu baxımdan digər təxirəsalınmaz işlər kimi, sığorta olunmağa göstərdiyimiz münasibət günümüzün mədəni normaları arasında özünə yer tutmaqdadır.***

# Sığorta mədəniyyətinin artırılması üçün tədbirlər görülür

Müasir dövrdə informasiya almaq imkanlarımız xeyli genişlənib. Hər gün çoxlu sayda təbii fəlakətlər, texnogen qəzalar, insanların səhvi və ya şəraiti düzgün qiymətləndirməməsi ucbatından baş verən arzuedilməz hadisələr haqqında xəbərlər alırıq. Bu hadisələr nəticəsində insanlar həyat və sağlamlığını itirir, maddi zərərlərə məruz qalırlar. Ehtimalı nə qədər az olsa da, hər an baş verə biləcək belə qəfil hadisələr insanları çətin maddi vəziyyətə salır, ailələrin büdcəsinə zərər vurur. Odur ki, müasir dövrdə ailə büdcəsinə nəzarət, gəlir və xərclərin düzgün idarə olunması ilə yanaşı, həm də sığorta savadlılığının artırılması istiqamətində insanların maarifləndirilməsinə çalışılır. Məqsəd isə hər bir ailənin iqtisadi təhlükəsizliyinin təmin olunmasıdır.

Qeyd etmək lazımdır ki, müasir dövrümüzdə digər sahələr kimi, sığorta işinin texnologiyasında, onun həyata keçirilmə mexanizmində, sığortaçı ilə sığortaolunan vətəndaşlar arasında hüquqi, təşkilati məsələlərin həllində də xeyli təkmilləşdirmələr aparılmışdır. Başqa sözlə, müasir sığortanın tarixi bir neçə yüz illərə qədər gedib çıxsa da, dünyada, o cümlədən ölkəmizdə sığorta sahəsində cəmiyyətin inkişafına uyğun olaraq daim yeni qanun və qaydalar tətbiq olunur. Təkcə icbari sığortanın bir sıra növlərinə, məsələn, daşınmaz əmlakın, avtomobil sahiblərinin mülki məsuliyyətinin sığortasına nəzər salsaq, burada vətəndaşların rahatlığı naminə nə qədər üstünlüklər olduğunu görərik. Belə ki, özünə avtomobil almış və hərəkət zamanı hər hansı qəfil hadisə nəticəsində üçüncü bir şəxsə vura biləcəyi maddi zərəri ağlına belə gətirməyən bəzi vətəndaşlara bunları xatırlatmaq onun gələcəyinə ən böyük zəmanətdir. Bundan başqa, müasir texnoloji imkanlar da vətəndaşların sığorta tələbatlarını ödəmək üçün çox əlverişlidir. İndi həyata keçirilən mütərəqqi üsullarla çox az bir müddət içində vətəndaşların sığortalamaq istədiyi daşınmaz əmlak, ev əmlakı, avtomobil və digər dəyərli və qanunla sığortalanması mümkün olan bütün obyektlərin sığorta sənədləri hazırlana bilir. Eynilə də baş vermiş sığorta hadisəsi zamanı sığortalı vətəndaşın müraciətindən dərhal sonra sığorta agentliyinin nümayəndələri hadisəni aktlaşdıran digər müvafiq dövlət qurumu nümayəndələri ilə birgə hadisə yerində faktları dəqiqləşdirirlər. Bütün bunlar isə ölkəmizdə və muxtar respublikamızda həyatın bütün sahələrində davam edən inkişaf prosesləri fonunda mümkün olur.

Cəmiyyətdə sığorta mədəniyyətinin formalaşması bir sıra amillərdən asılıdır. İlk olaraq bu, sığorta fəaliyyətini təşkil edən müxtəlif təşkilatların, qurumların və sığorta olunmağa maraqlı olan şəxslərin qarşılıqlı etibarlı əməkdaşlığı nəticəsində formalaşır, sığorta bazarı iştirakçılarının davranışlarını tənzimləyən normalar sisteminə çevrilir. Qeyd olunduğu kimi, burada ilk mühüm şərt formalaşmış etibardan ibarətdir. Bu elə bir vacib məqamdır ki, bu zaman sığortaolunanın sığortaedənə, sığortaedənin isə sığortaolunana qarşılıqlı inamı yaranır və sığorta tərəflər arasında vacib bir sosial-iqtisadi tələbat modelinə çevrilir. Bundan sonra əhalinin sosial müdafiəsinin təşkili, təsadüfi, gözlənilməz hadisələr baş verdikdə onların maddi itkilərinin sığorta fondu vasitəsilə əvəz olunması, beləliklə də, onların çıxılmaz vəziyyətdən qurtarılması sığorta işini təşkil edənlərin vəzifəsinə, vaxtında sığortalanmaqla onun üstünlüklərindən istifadə etmək isə bütün sığortaolunanların borcuna və sosial məsuliyyətinə çevrilir.

Muxtar respublikamızda əhali arasında sığorta maarifçiliyinin genişləndirilməsi, bu sahədə mədəniyyətin formalaşdırılması istiqamətində işlər görülür. Belə ki, sığorta işinin genişləndirilməsi və bu sahədə mədəni xidmətin təmin olunması üçün dövlət tərəfindən sığorta orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir tələblərə cavab verən yeni inzibati binanın, nəqliyyat vasitələrinin, informasiya sistemlərinin istifadəyə verilməsi bu işin yüksək səviyyədə həyata keçirilməsinə təminat yaradır. Bununla yanaşı, muxtar respublika Dövlət Baş Sığorta Agentliyi tərəfindən idarə, müəssisə və dövlət orqanlarında maarifləndirmə tədbirləri keçirilir, müasir sığortanın mahiyyəti və əhəmiyyəti barədə ətraflı məlumat verilir. Eləcə də icbari və yaxud könüllü sığorta müqaviləsi bağlayan hər bir şəxsə bağladığı müqavilənin mahiyyəti, onun əhəmiyyəti, habelə sığorta hadisəsi baş verdikdə ona müraciət etmək və bu müqavilədən faydalanması yolları izah olunur. Sığorta müqavilələrinin bağlanılma işlərinin sadələşdirilməsi üçün onların elektron formada həyata keçirilməsi də bu istiqamətdə görülmüş işlərdəndir.

Bununla yanaşı, cəmiyyətdə müsbət sığorta ənənəsi yaratmaq, onu inkişaf etdirmək üçün təkcə bir qurumun deyil, bütün insanların səyləri tələb olunur. Belə ki, məsələn, bir çoxları yeni tanış olduqları insanların evi, və ya bahalı avtomobili ilə maraqlanırlar. Ancaq nədənsə, sığortası olmayan evin və ya avtomobilin nə zamansa ola biləcək qəfil bir hadisədən sonrakı dəyəri çox vaxt yada düşmür. Halbuki sığorta məbləği 20 min manatla ölçülən daşınmaz əmlakın cəmisi 40 manatlıq sığortası ilə bir il müddətində onun dəyərini zəmanət altına almaq olar. Əks halda, mütaliə həvəskarlarına yaxşı tanış olan "Merfi qanunları"nda deyildiyi kimi, avtomobilin yaxud evin sığorta müqaviləsi müddətində heç bir hadisə baş vermədiyi halda müqavilə müddəti bitəndən bir gün sonra baş verə biləcək bir hadisənin kim zəmanətçisi ola bilər ki? Ona görə də vaxtında sığorta olunmaqla, sığorta müqaviləsinin qurtardığı anda yenidən müqavilə bağlanılmasını təmin etməklə sığorta şəhadətnaməsi almaq ən təxirəsalınmaz işlərdən biri olmalıdır. Müddəti bitmiş sığorta müqaviləsinin həmin gün yenilənməsi ola biləcək qəfil hadisələrin qarşısında çətin vəziyyətə düşməməyə imkan verir. Çünki heç bir qəfil hadisənin gəlişini əvvəlcədən xəbər vermək mümkün deyil.

✍ Əli CABBAROV



***Xalqımızın ləyaqətli, tükənməz duyğularından biri, heç şübhəsiz, bayraq sevgisidir. Bu sevgi tarix boyunca Azərbaycan xalqının canından belə əziz tutduğu müqəddəs duyğu olub, böyük dəyərə çevrilib. Vətənin bütövlüyünü, millətin müstəqilliyini ifadə edən bayraq əsrlər boyu xalqın milli kimliyinin, dilinin, mədəniyyətinin, dini-mənəvi əxlaqının milli ideologiyası kimi dəyərləndirilib.***

# Bayraq milli kimliyimizin simvolu, xalqımızın zəfər rəmzidir

## *Dövlət Bayrağı Muzeyində dəyərli eksponatlar saxlanılır*

1990-cı il noyabrın 17-də ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə müstəqil Azərbaycan Respublikasının üçrəngli bayrağı zirvələrə ucaldılıb. Ümummilli liderimizin 1993-cü ildə Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra dövlət bayrağımız milli suverenliyimizin simvolu kimi təsdiq olunub. Həmin dövrdən başlayaraq bayrağımızın qorunması və mühafizəsi ilə bağlı bir çox qanun və sərəncam imzalanıb. Bu gün dövlətçiliyimizin, milli dəyərlərimizin daşıyıcısı olan müqəddəs bayrağımıza həmin ehtiramın davamı kimi ölkə Prezidentinin müvafiq sərəncamları ilə bir sıra təqdirəlayiq işlər görülür, genişmiqyaslı tədbirlər həyata keçirilir. Elə paytaxt Bakı şəhərində Bayraq Meydanının yaradılması bayrağımıza olan sevgi və ehtiramın göstəricisidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2014-cü il 22 avqust tarixdə imzaladığı “Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında” Sərəncam da bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

2014-cü il noyabrın 17-də Ali Məclis Sədrinin iştirakı ilə açılış mərasimi keçirilən Dövlət Bayrağı Meydanı və Muzeyini yaxın günlərdə biz də ziyarət etdik. Muzeydə nümayiş etdirilən dəyərli eksponatlarla tanış olduq. Muzeyin direktoru əvəzi İsfəndiyar İsmayılov bildirdi ki, hər bir ölkənin Dövlət Bayrağı onun müstəqilliyini təcəssüm etdirir. Ona görə də bayrağa münasibət Azərbaycan tarixboyu özünü qabarıq şəkildə göstərib, xalqın milli mövcudluq simvolu sayılıb. Naxçıvan şəhərinin ən hündür zirvəsində yerləşən Dövlət Bayrağı Muzeyində nümayiş etdirilən dövlət rəmzləri, bayraq və xəritələr dövlətçilik tariximizi öyrənməyə geniş imkanlar yaradır.

Müsahibim qeyd etdi ki, Naxçıvanın ən qiymətli sərvətlərindən biri də muxtariyyətdir. Azərbaycanın bu tarixi ərazisində yaranmış qədim dövlətlər kimi, Naxçıvan Muxtar Respublikası da özünün dövlətçilik atributlarına malik olub. 1924-cü ildə qəbul edilmiş “Naxçıvan Sovet Sosialist Respublikası haqqında Əsasnamə” və Naxçıvan Muxtar Respublikasının 1926-cı, 1937-ci və 1978-ci il konstitusiyalarında dövlət gerbi və bayrağı haqqında müddəalar öz əksini tapmış, onların təsvirləri verilmişdir. İlk dəfə olaraq 1998-ci il Konstitusiyasında Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı və gerbi ilə yanaşı, Dövlət Himni də təsbit edilib. Muzeydə nümayiş etdirilən Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Əsasnaməsi və muxtariyyət dövründə qəbul olunan konstitusiyalar, eləcə də ölkəmizin müstəqilliyi dövründə nəşr edilmiş “Naxçıvan tarixi atlası” “Gümrü, Moskva və Qars müqavilələri”, “Naxçıvan tarixi” çoxcildliyi, “Naxçıvan Muxtar Respublikasının yubileyləri” kitabları Naxçıvanın muxtariyyət tarixini öyrənmək baxımından mühüm əhəmiyyətə malikdir.

Muzeyə baxış zamanı burada nümayiş olunan eksponatlardan müxtəlif dövrlərdə dövlət atributu kimi qəbul edilmiş bayraqlar diqqətimizi çəkdi. Burada öyrəndik ki, Naxçıvan İctimai Şuralar Cümhuriyyətinin bayrağı qəbul edilərkən Naxçıvana hələ muxtariyyət statusu verilməmişdi. Latın əlifbasının ərəb əlifbası ilə eyni hüquqda işlədilməsi haqqında Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin dekreti və Azərbaycan SSR-in ilk dövlət bayrağının təsviri əsasında 1922-ci il dekabrın 30-da Naxçıvan SSR-in ilk bayrağı təsdiq edilmişdir. Azərbaycan SSR-in 1927-ci ildə qəbul edilmiş Konstitusiyasına əsasən Naxçıvan Sosialist Şuralar Cümhuriyyəti bayrağının üzərindəki “İctimai” sözü “Sosialist” sözü ilə əvəz olunaraq 1937-ci il sentyabrın 18-də qəbul edilən Konstitusiyasında Naxçıvan Avtonom Sosialist Respublikasının bayrağı olaraq qəbul olunmuşdur.

Muzeydə Kəngərli süvari dəstəsinin döyüş bayrağı, həmçinin mərkəzi hissədə yerləşdirilmiş vitrinlərdə XII əsrdən başlayaraq müxtəlif dövrlərə aid edilən Eldənizlər dövlətinin bayrağının, Naxçıvan xanlığının gerb və bayrağının, Kəngərli süvarilərinin fəxri bayrağının, Naxçıvan qəzasının gerbinin, Naxçıvanda zərb olunmuş və pul dövriyyəsində işlədilmiş sikkələrin fotosurətləri də nümayiş olunan maraqlı eksponatlar sırasındadır.

Həmsöhbətim muzeydə nümayiş etdirilən ağac üzərində yonulmuş Dövlət Himninin mətni və gerbi əks olunmuş eksponat haqqında danışarkən qeyd etdi ki, bu eksponat Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən muzeyə hədiyyə olunub.

Muzeydə bayraqlarla yanaşı, xəritələr də nümayiş etdirilir. Müxtəlif dövrlərə aid olan Azərbaycan Respublikasının inzibati-siyasi xəritəsi, XII əsrdə yaranmış Azərbaycan Eldənizlər dövlətinin, 1747-1828-ci illərə aid Naxçıvan xanlığının,



Araz-Türk Respublikası, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının xəritələri və Naxçıvanın inzibati ərazi bölgüsünü əks etdirən xəritə ekspozisiyada yer almaqdadır. Ekspozisiyada, həmçinin Naxçıvan Muxtar Respublikasının fəxri adları, medal və nişanları da sərgilənir. 1974-cü ildə Naxçıvan Muxtar Respublikasının 50 illiyi münasibətilə “Xalqlar Dostluğu” ordeni ilə təltif edilməsi və bu medalın ümummilli lider Heydər Əliyev tərəfindən Naxçıvan Muxtar Respublikasının bayrağına sancılması ilə bağlı foto, muzeyin açılışında dövlət bayrağını qaldıran gənclərlə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xatirə şəkli də muzeyin dəyərli eksponatlarındandır.

Müsahibimiz onu da qeyd etdi ki, Dövlət Bayrağı Muzeyi Naxçıvan şəhərinin ən hündür ərazisində yerləşir. Meydanda dalğalanan dövlət bayrağının uzunluğu 20, eni 10 metr, bayraq dirəyinin hündürlüyü isə 57 metrdir. Bayraq dirəyinin ətrafında yaradılmış muzey binası səkkizguşəlidir. Hazırda burada 159 eksponatdan 148-i nümayiş olunur, 11-i isə muzeyin fondunda mühafizə edilir.

Vurğulamaq lazımdır ki, Naxçıvan şəhərindəki Dövlət Bayrağı Meydanı və Muzeyi bu gün naxçıvanlıların və bura yolu düşən qonaqların daim ziyarət etdiyi müqəddəs ünvana çevrilib. Artıq burada müxtəlif tədbirlərin keçirilməsi ənənə halını alıb. “Muzey günləri” çərçivəsində muxtar respublikanın nazirlik, komitə, agentliklərinin, idarə, müəssisə və təşkilatlarının kollektivləri muzeyi ziyarət edir, burada onlara dövlət və döyüş bayraqlarımız haqqında ətraflı məlumatlar verilir. Bayrağımıza ehtiram hissini gücləndirmək məqsədilə dövlət qulluğuna yeni təyin olunmuş gənclərin andiçmə mərasimlərinin burada keçirilməsi onların bayrağımız haqqında daha geniş bilgilərə malik olmalarına şərait yaradır.

*Bayraq keçmişimiz, bu günümüz və gələcəyimizin nişanəsi, milli kimliyimizin simvolu, xalqımızın zəfər tacıdır. Şəhid məzarları üzərinə sancdığımız, qarşısında baş əydiyimiz, daim zirvələrə yüksəltdiyimiz üçrəngli bayrağımız, qoy bundan sonra da azad və müstəqil Azərbaycanımızın üzərində əbədi və qürurla dalğalansın!*

✍ **Gülcamal TAHİROVA**



***Məhəmməd Füzuli adına Ordubad şəhər internat tam orta məktəbi 1957-ci ildə I-IV siniflər üçün 120 nəfərlik şagird kontingenti ilə 7 illik məktəb kimi Ordubad şəhərində tikilmiş 240 şagird yerlik binada fəaliyyətə başlayıb. Məktəbə rayonun qabaqcıl müəllimləri cəlb edilib. Bu da öz bəhrəsini verib. Elə ilk illərdən başlayaraq məktəb öz fəaliyyəti ilə gözəçarpan göstəricilərə imza atıb. Ölkəmizin müxtəlif rayonlarından bu təhsil ocağına axın başlayıb. Bu məktəb həm də valideyn himayəsindən məhrum olmuş və aztəminatlı ailələrin uşaqlarının oxumaq imkanı əldə etmələri baxımından diqqəti çəkib.***

*Təhsil millətin gələcəyidir*

# Təhsilə göstərilən qayğı bəhrələrini verir





1964-cü ildə Ordubad şəhərində internat məktəbi üçün yeni 420 şagird yerlik tədris, 300 yerlik yataqxana korpusu inşa olunub. Yeni korpuslar həmin ilin sentyabrında öz qapılarını 340 şagirdin üzünə açıb. Bu illər ərzində məktəbdə güclü təhsil ənənələri yaradılıb.

Azərbaycan Respublikası ikinci dəfə müstəqilliyinə qovuşduqdan sonra ulu öndərin yenidən hakimiyyətə qayıdışı ilə ölkə təhsilinin inkişaf strategiyası müəyyənləşdirildi. Regionların sosial-iqtisadi inkişafı Azərbaycanda inşa olunan yeni məktəb binalarının sayının artmasına, təhsildə uğurlar qazanılmasına stimul oldu. Bu qayğıdan Ordubad internat məktəbinə də pay düşdü. 2006-cı il dekabrın 21-də ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə istifadəyə verilən internat məktəbi yeni inkişaf mərhələsinə qədəm qoydu. Bir neçə il bundan əvvəl isə məktəb binası əsaslı surətdə təmir edilib.

Müasir tələblərə cavab verən bu təhsil ocağında bütün avadanlıqlarla təchiz olunmuş fizika, kimya laboratoriyaları, 20 dəst kompüterlə təmin olunmuş kompüter sinfi, 3 elektron lövhəli sinif, yataqxana, yeməkxana, 434 şagird yerlik tədris korpusu mövcuddur. Kompüter sinfi internet şəbəkəsinə qoşulub.

Yeni məktəb kompleksinin sahəsi 2,2 hektardır. Kompleksin ərazisində gülkarlıqlar və meyvə bağı salınıb. Buraya daimi su xətti çəkilib. Məktəbdə tədrisin səviyyəsini müasir tələblər baxımından qurmaq üçün yaradılmış şəraitdən səmərəli istifadə edilir. Şagirdlər test-sınaq imtahanlarına cəlb olunur, müxtəlif bilik yarışlarına qatılırlar. Onlar muxtar respublika və ölkə səviyyəli tədbirlərdə, fənn olimpiadalarında iştirak edir, məktəbə fəxri fərmanlar və diplomlarla qayıdırlar. Məktəbin müəllim kollektivi müasir təlim üsullarının tətbiqini qazanılacaq uğurların başlıca amili sayır. Təhsil ocağında informasiya-kommunikasiya texnologiyalarından istifadəyə ciddi diqqət yetirilir. Şagirdlərin mütaliə və nitq mədəniyyətinin inkişaf etdirilməsində məktəb kitabxanasının böyük rolu var. Burada tez-tez kitab müzakirələri, əlamətdar günlər, tarixi bayramlar münasibətilə tədbirlər keçirilir.

Öz tarixi ənənəsinə sadiq qalan internat məktəbinin idman komandaları istər rayon, istərsə də muxtar respublika birinciliklərində layiqincə iştirak edirlər. Son 10 ildə rayon üzrə keçirilən bütün yarışlarda məktəbin idmançıları mükafata layiq yerləri tutublar.

Məktəbdə gənclərin çağırışaqədərki hazırlığı dərslərinin yüksək səviyyədə tədrisinə ciddi fikir verilir. Hərbi rəhbər Yusif Məmmədovun əməyi nəticəsində məktəbin “Şahin” və “Sərhəd” komandaları Ordubad rayonunu respublikada layiqincə təmsil edirlər. “Sərhəd” komandası hərbi idman oyunlarında 2015-ci ildə respublika birincisi olub. Bu sahəyə ciddi önəm verilməsinin nəticəsidir ki, hazırda məktəbin 6 məzunu Sərhəd Xidməti Akademiyasında, 2 məzunu Milli Aviasiya Akademiyasında, 17 şagirdi Heydər Əliyev adına Hərbi Liseydə təhsil alır.

Yeri gəlmişkən qeyd edək ki, ali məktəblərə tələbə qəbulunda Ordubad internat məktəbi həmişə öncül yerdə olub. Ötən tədris ilində məktəbi bitirən 17 məzundan 14-ü ali məktəblərə, 1-i Tibb Kollecinə, 1 məzun isə Sərhəd Akademiyasına qəbul olunub. Tələbə adını qazananlardan 4-ü 500-700 intervalında bal toplayıb. 9 illik bazadan isə orta ixtisas məktəblərinə sənəd verənlərin 10 nəfəri imtahanlardan uğurla çıxıb.

Məhəmməd Füzuli adına internat tam orta məktəbi 2008-ci ildə respublikada “İlin ən yaxşı məktəbi” müsabiqəsinin qaliblərindən biri olub. Ötən illər ərzində məktəbin qabaqcıl müəllimlərinin əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Rəhimə Ramazanova ölkə Prezidenti İlham Əliyevin Sərəncamı ilə “Tərəqqi” medalına, baş tərbiyəçi Mehman Vəlibəyov “Azərbaycan Respublikasının Əməkdar müəllimi”, ibtidai sinif müəllimləri Nərgiz Həsənəliyeva və Tahirə Rzayeva “Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi” fəxri adlarına layiq görülüblər.

Bu gün 71 müəllim-tərbiyəçi və 57 nəfər texniki işçinin çalışdığı kompleksdə camaşırxana, hamam, dərzi, bərbər, ayaqqabı təmiri otaqları, bufet vardır. Üstüaçıq yaşıl meydança və idman zalı gənc nəslin sağlam böyüməsində mühüm rol oynayır.

Naxçıvan Muxtar Respublikasının Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Ordubad Rayon İcra Hakimiyyəti və rayon Təhsil Şöbəsi məktəblə sıx əlaqə saxlayır, bayram və əlamətdar günlərdə məktəblilərin qonağı olur, burada yaşayan uşaqlara öz diqqət və qayğılarını əsirgəmirlər. 2017-2018-ci tədris ilində adıçəkilən nazirlik və təşkilatlar məktəbdə təhsil alan uşaqlara məktəbli geyim dəsti və ləvazimatlar təqdim ediblər.

Məktəbin kollektivi 2017-2018-ci tədris ilinə yüksək əhval-ruhiyyə ilə başlayıb. Dövlətimizin təhsil işçiləri qarşısında qoyduğu vəzifələrin yerinə yetirilməsi üçün yaradılmış şərait, vətənpərvər, dövlətçiliyimizə, müstəqilliyimizə sadiq olan vətəndaş tərbiyəsini diqqətdə saxlamaq kollektivə yeni uğurlar qazanmaq imkanı verib. Məktəbin müəllimləri bu imkanlardan səmərəli istifadə edir, növbəti dərs ilində nailiyyətlərini artırmaq əzmi ilə çalışırlar.

**Musa AĞAYEV**
***Məhəmməd Füzuli adına Ordubad şəhər internat orta məktəbinin direktoru***

## Naxçıvanlı muğam ifaçılarının çıxışları böyük rəğbətlə qarşılanıb

***Muğam sənəti mədəni irsimizin mühüm hissəsini təşkil edir. Son illər muxtar respublikamızda mədəniyyətimizə göstərilən böyük qayğı bu sənətdən də yan keçməyib. Muğam ifaçılarımız dövlətimiz tərəfindən onlara göstərilən bu qayğıdan bəhrələnərək milli musiqi mədəniyyətimizin inkişafına öz töhfələrini verirlər. Bu günlərdə Bakı şəhərindəki Beynəlxalq Muğam Mərkəzində təşkil olunan "Nəqşi-cahan sədası" adlı konsert proqramı da muxtar respublikamızın muğam ifaçılarının yaddaqalan çıxışları ilə bərabər, həm də bu sənətə olan böyük rəğbəti ortaya qoydu.***

Əvvəlcə qeyd edək ki, noyabrın 11-də Beynəlxaq Muğam Mərkəzində keçirilən konsert proqramı yüksək səviyyədə təşkili və anşlaqla keçməsi ilə diqqəti çəkirdi. Tədbirdən əvvəl muğam ansamblının bədii rəhbəri Əbülfəz Məmmədov və Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Ehtiram Hüseynovla həmsöhbət olduq. Əbülfəz Məmmədov bildirdi ki, xalqımızın mənəvi sərvəti olan muğamlarımızı dərindən öyrənmək, milli mədəniyyətimizə sahib çıxmaq Azərbaycan vətəndaşı kimi bizim borcumuzdur. Bu gün muğam sənətini gənclərə aşılamaq, onlarda bu sənətə olan marağı artırmaq istiqamətində bir sıra işlər görülür, genişmiqyaslı tədbirlər həyata keçirilir. Görkəmli elm xadimlərinin, tanınmış musiqiçi və muğamsevərlərin iştirakı ilə konsert proqramının təşkili də həmin tədbirlərin davamıdır.





Digər həmsöhbətimiz Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Ehtiram Hüseynov isə dedi ki, bu gün muxtar respublikada milli musiqimizə, muğamlarımıza böyük diqqət və qayğı var. Bunun da bariz nümunələrindən biri belə möhtəşəm konsertin təşkil olunmasıdır. İlk dəfədir ki, muxtar respublikadan Bakı şəhərinə bu tərkibdə musiqiçilər, xanəndələr gəlir. İnanıram ki, Əbülfəz Məmmədovun rəhbərliyi ilə "Nəqşi-cahan" muğam ansamblının çıxışları hər kəsdə xoş təəssüratlar yaradacaq.

Sonra konsert başladı. Məxsusi zövqlə işıqlandırılmış səhnədə muğam ifaçılarının çıxışları dinləyicilərdə xoş ovqat yaratdı. Gecədə Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Ehtiram Hüseynov, Tural Nəcəfov, Zülfüqar Mahmudov, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının solisti Təyyar Mədətli, Həsən Babayev, Ələkbər Sadıqov, Əli Mehrəliyev, IV Televiziya Muğam Müsabiqəsinin qalibi Sərxan Bünyadzadə, Ataxan Quliyev, Naxçıvan Dövlət Filarmoniyasının solisti Nərmin Hüseynova və Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin şagirdi Rəna Mehrəliyeva çıxış etdilər. Xanəndələr "Şahnaz" muğamını, "Sarı gəlin", "Gül açdı", "Şuşanın dağları" xalq mahnılarını, Ramiz Mirişlinin, Səid Rüstəmovun əsərlərini səsləndirdilər. İfaçıları tarda Ağabəy Qurbanov, kamançada Nurlan Nuriyev, balabanda Nihad Quliyev, pianoda Ziya Fətullayev və digərləri müşayiət etdilər. Gur alqışlarla qarşılanan konsert proqramı hər kəsdə böyük qürur hissi yaşatdı. "Qarabağ şikəstəsi" ilə gecəyə yekun vuran Naxçıvan Dövlət Uşaq Filarmoniyası solistlərinin ifası isə dinləyicilərin yaddaşında silinməz izlər buraxdı.

Konsertdə dinləyici qismində iştirak edən Azərbaycan Respublikasının Xalq artistləri Arif Babayev və Aygün Bayramova kimi böyük muğam ustalarının xoş təəssüratlarını dinlədik. Arif Babayev bildirdi ki, Naxçıvan xanəndələrinin belə qüsursuz ifaları məni qürurlandırdı. Bu tədbirlərdən aydın olur ki, bu gün Naxçıvanda mədəniyyət özünün intibah dövrünü yaşayır. Xalqımızın qədim mədəni irsinin ölməz nümunəsi, Azərbaycan musiqisinin zəngin fəlsəfi təməl üzərində təşəkkül tapmasında əvəzsiz rol oynayan muğamın təbliği, gənc nəslə aşılanması, göründüyü kimi, Naxçıvan Muxtar Respublikasında da diqqət mərkəzindədir. Bu məqsədlə görülən işlər təqdirəlayiqdir. Arif Babayev qeyd etdi ki, tarixən Naxçıvan Azərbaycan mədəniyyətinə, incəsənətinə dahi şəxsiyyətlər bəxş edib. Bu torpaq böyük şairlərin, yazıçıların, el sənətkarlarının, musiqiçilərin vətəni olub. İndi də bu ənənə uğurla davam etdirilir. Çox sevindirici haldır ki, bu gün Naxçıvanda Azərbaycan xalqının milli dəyərlərinin, adət-ənənələrinin, xalq mahnılarının, folklorunun, eləcə də milli irsimiz sayılan muğamın qorunub saxlanılmasına böyük diqqət yetirilir. İfaçıların hər birinə böyük uğurlar diləyir və belə tədbirlərin davamlı olmasını arzulayıram.



Xoş təəssüratlarını bizimlə paylaşan digər muğam ustası, Xalq artisti Aygün Bayramova isə dedi ki, mən dəfələrlə qədim diyar Naxçıvanda olmuşam, onun bütün bölgələrini gəzmişəm. Hər səfərimdə Naxçıvanda mədəniyyət sahəsində böyük işlərin görüldüyünün şahidi olmuşam. Şərqin qapısı olan gözəl Naxçıvanda muğam üçlüklərinin yaradılması, musiqi məktəblərində muğamın tədrisinə ciddi diqqət yetirilməsi neçə-neçə gənc ifaçının üzə çıxmasına şərait yaradıb. Elə bugünkü konsertdəki möhtəşəm ifalar bunu bir daha təsdiq edir. Çox sevinirəm ki, Naxçıvanda mədəniyyət bu dərəcədə inkişaf edib. Bu cür tədbirlər sübut edir ki, minillik tarixi olan, illərin sınağından mətanətlə çıxan Naxçıvanda muğama böyük ehtiramla yanaşılır. Bu yurdda muğama böyük sevgi və marağın göstərildiyini Naxçıvan torpağının istedadlı gənclərinin muğam sahəsində əldə etdiyi böyük uğurlar da təsdiq edir. "Muğam televiziya müsabiqəsi – 2013"-də naxçıvanlı gənc muğam ifaçısı Sərxan Bünyadzadənin qalib olması naxçıvanlı gənclərin muğama olan sevgisinin bariz göstəricisidir.

"Nəqşi-cahan sədası" konsert proqramı digər tamaşaçılarda da xoş təəssürat yaradıb. Onlardan Naxçıvan torpağının yetirməsi akademik Teymur Kərimli konsertlə bağlı təəssüratlarını bizimlə bölüşərək bildirdi ki, bu gün Azərbaycanda, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında muğam sənəti daha böyük qayğı ilə əhatə olunub. Muğam ifaçıları, ustad xanəndələr dövlət tərəfindən hərtərəfli dəstək alırlar. Elə bunun nəticəsidir ki, bu gün Naxçıvan torpağında belə istedadlı muğam ifaçıları yetişir. Arzu edirəm ki, onların xoş sədası işğal altında olan torpaqlarımızdan gəlsin.

Qeyd edək ki, konsertdə tanınmış musiqiçilərlə yanaşı, Çinin, Avstriyanın, Türkiyənin, Misirin, Kosta-Rikanın, Səudiyyə Ərəbistanının səfirləri, Kipr Respublikasının Bakı nümayəndəliyinin rəhbəri və Azərbaycanın görkəmli elm xadimləri də iştirak edirdi.

✍ **Gülcamal TAHİROVA**
***Naxçıvan-Bakı***

***Naxçıvan Muxtar Respublikasında həyata keçirilən kompleks quruculuq tədbirlərinin mühüm istiqamətlərindən biri də regionda ekoloji problemlərin həllinin, ətraf mühitin qorunmasının, təbiətin zənginləşdirilməsinin diqqət mərkəzində saxlanılmasıdır.***

## İməciliklərdə yaşıllıqlara aqrotexniki qulluq göstərilib, yeni ağaclar əkilib

Son illərdə diyarımızda yaşıllıq sahələrinin həcminin dəfələrlə artması, yurdumuzun yaşıllıqlar məskəninə çevrilməsi məhz belə tədbirlərin nəticəsidir. Bu sahədə görülən işlərin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi, mövcud problemlərin həlli istiqamətində görülən tədbirlər davamlı xarakter alıb, yeni əkilən ağacların suvarılmasında damcı üsulunun tətbiqi genişləndirilib, xeyli meyvə bağları, yaşıllıq zolaqları salınıb.

Cari ildə də bu tədbirlər mütəşəkkilliklə davam etdirilir, meyvə bağlarına, yaşıllıq zolaqlarına, gülkarlıq sahələrinə aqrotexniki qulluq göstərilir.

Ötən həftə keçirilən iməciliklər də yüksək səviyyədə təşkil olunmuşdu.

Naxçıvan şəhərinin sakinləri sutəmizləyici qurğuların qarşısındakı 2 hektarlıq ərazidə 700 badam ağacı, Sənaye Məhsulları Kompleksinin qarşısındakı 1 hektarlıq ərazidə isə 350 meyvə ağacı əkiblər.

Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunda Yuxarı Daşarx-Dizə kəndləri arasındakı 2 hektarlıq ərazidə bərpa məqsədilə 500 meyvə ağacı əkilib, Heydər Parkında təmizlik işləri görülüb.

Babək rayonunun ərazisində də qələbəlik müşahidə edilib. Rayon sakinləri muxtar respublikanın ekologiyasına öz töhfələrini verməyə çalışaraq Nehrəm-Çeşməbasar kəndləri ərazisində 2 min meyvə ağacı əkiblər.

Bağlar diyarı Ordubad rayonunda da iməciliklər mütəşəkkilliklə keçirilib. Əylis düzündə 1500, Düylün kəndi yolunda və kəndin girişində 900 meyvə ağacı, ümumilikdə, kəndlərdə 700 meşə və 300 meyvə ağacı əkilib.

Culfa rayonunda keçirilən iməciliklərdə Dizə kəndində 196 həmişəyaşıl ağac, 560 gül kolu, şəhərin girişində və Əlincəboyu kəndlərdə, ümumilikdə, 600 meyvə ağacı əkilib.

Kəngərli rayonunda Naxçıvan-Sədərək magistral yolunun Xok kəndi hissəsindəki 5 hektarlıq yeni salınmış bağda 1800 badam ağacı, Qarabağlar kənd qəbiristanlığında 200 həmişəyaşıl ağac əkilib.

Şahbuz rayonunda bərpa məqsədilə, ümumilikdə, 0,2 hektarlıq ərazidə 230 meyvə ağacı əkilib, Qızıl Qışlaq kəndində yaşıllıqlara aqrotexniki qulluq göstərilib.

Sədərək rayonunda da iməciliklər mütəşəkkil qaydada keçirilib. Heydərabad qəsəbəsində 300 gül kolu və 100 həmişəyaşıl ağac, 2 hektarlıq bağda 800 meyvə, Mədəniyyət və Turizm Şöbəsinin yaxınlığında 300 meyvə, 120 həmişəyaşıl ağac və 200 gül kolu salınıb.

Həmin gün muxtar respublikamızın bütün bölgələrində ahıl vətəndaşların həyətlərində təmizlik, abadlıq işləri aparılıb.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikası üzrə 13 noyabr 2017-ci il tarixə taxıl səpininin gedişinə dair operativ məlumat

hektarla

| S/№ | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 2501,0 | 2413,0 | 88,0 |
| 2. | Babək rayonu | 5984,0 | 3857,0 | 2127,0 |
| 3. | Ordubad rayonu | 1006,0 | 627,0 | 379,0 |
| 4. | Culfa rayonu | 3216,0 | 2628,0 | 588,0 |
| 5. | Kəngərli rayonu | 3439,0 | 1794,0 | 1645,0 |
| 6. | Şahbuz rayonu | 864,3 | 847,0 | 17,3 |
| 7. | Sədərək rayonu | 1052,0 | 863,0 | 189,0 |
| 8. | Naxçıvan şəhəri | 500,0 | 438,0 | 62,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **18562,3** | **13467,0** | **5095,3** |

## Şəhər birinciliyinə yekun vurulub

*Naxçıvan şəhərindəki İslam Hümbətov adına Uşaq-gənclər idman məktəbində 17 noyabr – Milli Dirçəliş Günü münasibətilə yeniyetmələr (2002-2004-cü illər) arasında yunan-Roma güləşi üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.*



Birinciliyin açılış mərasimində çıxış edən Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov, Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədr müavini Faiq İsgəndərov idmançılara Milli Dirçəliş Günü haqqında geniş məlumat verib, onları yarışın qaydaları barədə məlumatlandırıblar.

Birincilikdə 10 çəki dərəcəsi üzrə 50-yə yaxın idmançı qüvvəsini sınayıb. Beynəlxalq Güləş Federasiyasının qaydalarına əsasən keçirilən yarışda Mirsamir Seyidov, Rəvan Novruzov, Turqay Allahverdiyev, Hüseyn Əhmədli, Seymur Qasımov, Heydər Nəcəfov, Abbas Nəzərəliyev, Anar Həsənov, Rəvan Bayramov və Qoca Əhmədov müvafiq olaraq 35, 38, 42, 46, 50, 54, 58, 63, 69 və 76 kiloqram çəki dərəcələrində bütün rəqiblərini üstələyərək birinciliyin qalibi olublar.

Sonda müxtəlif çəki dərəcələrində qalib gələn idmançılar təşkilatçılar tərəfindən diplomlarla mükafatlandırılıblar.

✍ **Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Kəngərli rayonunun Yurdçu kənd sakini Əhmədov Salah Cəfər oğlunun adına verilmiş JN-243$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 921